Xalq qəzeti.- 2024.- 29 iyun, № 133.- S.12.

# Aktyorun intellektual səviyyəsi yüksək olmalıdır

**XIX əsrin ikinci yarısında maarifçi ziyalıların zəkası və zəhməti sayəsində təşəkkül tapmış Azərbaycan teatrı bu gün həmin yolun davamçısı olan aydınların çiynində yoluna davam edir. Əks-təqdirdə nə teatr, nə də sənətin digər sahələri nəsildən-nəslə ötürülərdi. İşıq qaranlığı aydınlatdığı kimi sənət fədailəri də həyatımızın kölgəli məqamlarına ayna tuturlar.**

Budəfəki müsahibimiz sənətin yükünü çiyinlərində daşıyan, onu gələcək nəsillərə ötürmək missiyasını özünə şərəf sayan bir sənətkar – Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Məmmədsəfa Qasımovla professoru olduğu Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində görüşdük.

***– Bir vaxtlar təhsil aldığınız Mədəniyyət və İncəsənət Universitetində indi dərs deyirsiniz. Maraqlıdır, aktyor tələbəlik dövründə daha çox öyrənir, yoxsa öyrədəndə?***

– İndi daha çox öyrənirəm, çünki gənc yaşlarında insan bir az səhlənkar olur, əziyyətə qatlaşmaq istəmir. Yaş öz sözünü deyir, tay-tuşlarının təsiri altına tez düşürsən. İndi öyrənmək yanğısı daha böyükdür, gənclik illərinin də hayfını indi özündən alırsan.

***– Məmmədsəfa müəllim, gəlin əvvəlcə özünüzü əziyyətə salmaq istəmədiyiniz illərə, Şabran mədəniyyət evindən başlayan, teatr səhnəsinə, kinolentlərə, universitet auditoriyasına və Xalq artisti fəxri adına qədər yüksələn həyat yolunuza qısa ekskurs edək. İndiki məqama gəlib çıxmağınız xoş təsadüfdür, yoxsa taleyin gərdişi?***

– Təbii ki, bu, düşünərək gəldiyim yoldur. Amma bilsəydim ki, bu qədər çətin olacaq bəlkə də tərəddüd edərdim. Aktyor sənəti insandan çox böyük iradə, enerji, səbir və digər keyfiyyətlər tələb edir. Amma artıq gecdir. Peşəmi çox sevirəm, sənətimə bərk bağlıyam, ona görə də nə geriyə, nə də qaçmağa yol yoxdur.

***– Dediniz ki, aktyor sənəti başqa keyfiyyətlər də tələb edir. Onlar hansılardır?***

– Birincisi, normal insani münasibət olmalıdır. Yəni, söhbət ətrafdakı insanlara, həmkarlarına sevgi ilə yanaşmadan gedir. Bunun üçün intellektual səviyyən yüksək olmalıdır. Daim mütaliə etməli, klassik və müasir, yerli və xarici ədəbiyyata bələd olmalısan. Fiziki hazırlığın öz yerində və bir də şans. Bu mənada özümü bəxtəvər sayıram. Şansım gətirib, ona görə ki, qayğıkeş müəllimlərim olub. İlk təhsilimi Kitabxanaçılıq Texnikumunun mədəni-maarif fakültəsində almışam. Orada müəllimim Əfrasiyab Məmmədov idi.

***– Texnikumu bitirəndən sonra bir müddət Şabran mədəniyyət evində işləmisiniz...***

– Bəli, Mədəniyyət evinin müdiri olmuşam. Sonra Bakıda İncəsənət Universitetinə qəbul olundum. Orada Fuad Hacıyev, Zəminə Hacıyeva, Nəsib Sadıqzadə, Faiq Zöhrabov, Hüseynağa Hüseynov kimi sənətkarlardan dərs almışam. Səhnə danışığını Mikayıl Mirzədən öyrənmişəm. Əksəriyyəti dünyasını dəyişib.

Ən cəfakeş müəllimim isə Vaqif İbrahimoğlu olub. Vaqif müəllim ensiklopediya idi, ondan çox şey öyrəndik. 1990-cı ilə qədər Tədris Teatrında, sonra Musiqili Teatrda onun yanında işləmişəm. Bir müddət sonra Akademik Milli Dram Teatrının kiçik səhnəsində yığışdıq. "Yuğ" Teatrı orada formalaşdı, sonra dövlət statusu aldı. Bu gün ən ağrılı yerim "Yuğ" Dövlət Teatrının öz binasının olmamasıdır. Doğma teatrım yuvasız qalıb. Sağ olsun Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə ki, bizə şərait yaradıb. Ondan doğma münasibət görürük. Amma onların yerlərini dar etmişik. Məşq otaqlarını bizə səhnə kimi veriblər. Orada məşq edirik, tamaşa oynayırıq. İnanın ki, projektorların işığı adamın beynini deşir. Dəfələrlə tamaşa zamanı çıxıb qaçmaq istəmişəm. Havasızlıq, darısqallıq, aktyorların və 50 tamaşaçının nəfəsinin ağırlığı adamı boğur. Tamaşaçı da əziyyət çəkir, aktyor da. Bu şəraitdə işləyirik. Yəqin ki, problem həll olunar, dövlət teatrına paytaxtda münasib bir bina tapılar.



***– 1991-ci ildən, yəni yarandığı gündən "Yuğ" Teatrındasınız. Bizə elə gəlir ki, bu sənət ocağına bağlılığınızın arxasında ustadın ruhuna ehtiram dayanır...***

– Biz teatrımızı sevirik, bütün varlığımızla ona bağlıyıq. Çünki bizi sənətə, o teatra bağlayan müəllimimiz olub. Onun ruhu bizimlədir. Müəllim yalnız bizim itkimiz deyil, aktyor, rejissor sənətinin, tərcümə sektorunun, kinomuzun itkisidir. Vaqif İbrahimoğlu teatrda kino üçün də aktyorlar yetişdirirdi. Bir dəfə məni qısnadı divara ki, niyə mən dediyimi qoyub, öz bildiyini edirsən? Dedim, müəllim, mən hələ "Yuğ"un poetikası ilə bağlı axtarışdayam, özüm üçün yerbəyer etməkdəyəm. Artıq uzun illər keçib, yaşımızın o çağındayıq ki, "Yuğ" bizim üçün qiymətlidir. Mənim üçün isə bu teatr iri plandır.

***– Hərdən adama elə gəlir ki, "Yuğ"un estetikasını orada işləyənlərin hamısı mənimsəyə bilməyib. Vaqif müəllimin yoxluğunda, bu, hiss olunurmu?***

– Bu, təbiidir. Teatrı yaradanın duyduğunu onun qədər heç kim hiss edə bilməz. Əsas odur ki, biz necə var olduğumuzu fərd kimi anlayaq. Buna uzun vaxt lazımdır. Vaqif İbrahimoğlu özündəkinin hamısını bizə ötürə bilmədi, çox şeyləri özü ilə apardı. Amma bəzi şeylər verdi, bu gün onun verdiklərinin üzərindən davam edirik. Aktyor sənəti amansızdır, onu dərk etməyə bir ömür bəs eləmir.

***– İlk rolunuz Tədris Teatrında Vaqif İbrahimoğlunun hazırladığı Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərinin tamaşasında Şahbaz bəy olub. Sonra Otello, Şah İsmayıl, Füzuli, Qorqud və sair. Hələlik sonuncu "21:15 qatarı" tamaşasındakı kişi obrazına qədər. O qalereyanın içində oynamaq istədiklərinizin hamısı var?***

– Deməzdim, istədiklərimi oynamışam. Heç vaxt oynamaq istədiyim konkret obraz olmayıb. Canlandırdığım obrazlar özləri məni tapıb, qismətimə düşüb. Biz də bacardığımız formada işimizi ortaya qoymuşuq. Onlar hələ hamısı deyil, oynayacağım rollar qabaqdadır.

***– Onların içində Akademik Milli Dram Teatrının səhnəsində Azərpaşa Nemətovun quruluşunda "Şah Qacar" tamaşasında oynadığınız Kərim Zənd rolunun yeri tamam fərqlidir...***

– Allah Azər müəllimə də, Şah Qacarı oynayan Fuad Poladova da rəhmət eləsin. O obrazın mənim üçün xüsusi yeri var.

***– Nədənsə səhnədə lirik – sentimental obrazınızı xatırlamıram.***

– Bu, yalnız bizdə deyil, bütün dünyada belə bir tendensiya var. Aktyoru birinci hansı obrazda görürlərsə, o cür rollara dəvət edirlər. Əziyyət çəkib başqa obrazlarda sınamırlar ki, fərqli tərəflərini, istedadını üzə çıxarsın. Düşünürəm ki, mən lirik obraz da oynaya bilərəm. Necə ki, Vaqif İbrahimoğlunun quruluşunda "Boy çiçəyi" tamaşasında Həsənzadəni oynamışam.

***– Kinoda da maraqlı obrazlarınız var. Düzdür, filmdə rolunuz azdır, amma çəkildikləriniz yaddaşlarda qalıb. Məsələn, "Dolu". Geniş yayılmasa belə, "Köpək", "Ovsunçu", "Sübhün səfiri" və sair. Filmoqrafiyanız özünüzü qane edir?***

– Hələ istədiyim qədər deyil. Kino ilə teatrı bir-birindən ayırmıram. İkisi də sənətimdir. Əlbəttə, hər biri fərqli yanaşma, münasibət tələb edir. İnşallah, çəkiləcəyimiz filmlər qabaqdadır. Kinoda ilk addımımı Tofiq Tağızadənin "Köpək" filmi ilə atmışam. Tanınmış sənətkarlarla eyni filmdə çəkilmək mənimçün böyük təcrübə idi. Bu mənada indiki tələbələr çox şanslıdır. Telefonla da özlərini çəkib ona baxa bilirlər, düzəliş edirlər. Aktyor əvvəlcə ekranda özünü tanımalıdır, səsini eşitməli, müşahidə aparmalıdır. Təcrübə böyük məktəbdir.

***– Aktyor, rejissor, sənət adamı yetişdirən universitetdə kafedra müdiri, professorsunuz. Sizcə, bu sahədə nə çatışmır?***

– Universitet istedad vermir, onun funksiyası istiqamət, yol göstərməkdir. Konkret səhnə danışığı kafedrası tələbənin qarşısında 4 il müddətində müəyyən şərt və qaydalar qoyur. Sən onları mənimsəməlisən. Fərdi yanaşma çox önəmlidir. Tələbə fiziki hazırlığı, nitqi üzərində işləməlidir. Aktyor sənəti söz və göz üzərindədir. Göz sözü, söz gözü əvəz edir. Burada kim özünü tapacaqsa, həyatı onun üzərində bərqərar olacaq.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***